Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 21-22 (7542-7543) · 1933-cü ildən nəşr olunur · Cümə, 3 may 2019-cu il. · news@qebele-ih.gov.az

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***29 aprel***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Argentina Milli Konqresinin Deputatlar Palatasının sədri Emilio Monzonu qəbul edib.

* * *

Dövlətimizin başçısı İlham Əliyev Xorvatiya Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri xanım Mariya Buriçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

***28 aprel***

Bakıda Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin - SOCAR Azərbaycan Qran-Prisinin əsas yarışı keçirilib. Əvvəlcə pilotların paradı və açılış mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Formula 1 üzrə dünya çempionatının dördüncü mərhələsinin - SOCAR Azərbaycan Qran-Prisinin əsas yarışına baxıblar. Dövlətimizin başçısı Konstruktorlar kubokunu "Mercedes" komandasının nümayəndəsinə təqdim edib.

***26 aprel***

Çin Xalq Respublikasına işguzar səfəri çərçivəsində Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

***24 aprel***

Çin Xalq Respublikasına işguzar səfəri çərçivəsində Pekində Ölkə başçısı İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin görüşü olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, Çin Xalq Siyasi Məşvərət Şurasının sədri Van Yanla görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikası Sədrinin dəvəti ilə 2-ci "Bir kəmər, bir yol" beynəlxalq forumunda iştirak etmək üçün bu ölkəyə işgüzar səfərə gedib

***23 aprel***

Ölkə başçısı İlham Əliyev Bakının Xəzər rayonunda Mərdəkan-Qala avtomobil yolunun açılışında iştirak edib.

## İlham ƏLİYEV:

*Görülmüş işlər deməyə əsas verir ki, biz düzgün yoldayıq. Buna heç bir şübhəmiz yoxdur. İqtisadi, sosial sahələrdə və bütün başqa sahələrdə islahatlar bundan sonra da aparılacaq.*

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib



Aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclası giriş nitqi ilə açıb.

Sonra Prezidentin iqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi Natiq Əmirov, kənd təsərrüfatı naziri İnam Kərimov və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev çıxış ediblər.

Prezident İlham Əliyev iclasda yekun nitqi söyləyib.

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 82-ci kitabı çapdan çıxmışdır




"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 82-ci kitabı yenicə çapdan çıxmışdır. Çoxcildliyin bu kitabındakı materiallar 2017-ci ilin avqust ayından oktyabradək olan dövrü əhatə edir.

Çoxcildliyin 82-ci kitabında dövlətimizin başçısının BMT Baş Assambleyasının 72-ci sessiyasında iştirak etmək üçün ABŞ-a səfəri çərçivəsində keçirdiyi yüksəksəviyyəli görüşlərə dair materiallar, sessiyanın açılışında çıxışının mətni, İslam Əməkdaşlıq Təşkilatının elm və texnologiya üzrə birinci Sammitində iştirak etmək üçün Qazaxıstan Respublikasına işgüzar səfəri barədə informasiyalar yer alıb. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Kitaba Prezident İlham Əliyevin Gürcüstan, Türkiyə, Koreya Respublikası, Rusiya, Fransa, Vyetnam və digər ölkələrin, ATƏT-in, NATO-nun, həbelə Avropa Yenidənqurma və İnkişaf Bankının, Beynəlxalq Valyuta Fondunun, Bakıda keçirilən beynəlxalq tədbirlərdə iştirak etmək üçün ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxsləri, nümayəndə heyətlərini qəbul etməsinə dair materiallar da daxil edilib.

Bu cilddə, həmçinin Prezident İlham Əliyevin Cəlilabad, Lənkəran, Neftçala, Salyan, Qobustan, Şamaxı rayonlarına səfərləri zamanı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşlərinə dair informasiyalar, bölgələrdə iqtisadiyyat, nəqliyyat, sosial infrastruktur layihələrinin və məişət obyektlərinin açılışlarında etdiyi çıxışların mətnləri, Bakıda orta məktəblərdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanışlığı barədə materiallar toplanıb.